

# Səhvimiz, igidliyimiz, əlacsızlığımız...

## "Hökmdarın taleyi" filmi üzərinə tamaşaçı qeydləri

**Kinosevərlərin illərdən bəri gözlədiyi filmin axır ki, geniş təqdimetmə mərasimi baş tutdu. Film tarixi olsa da günümüzlə çox səsləşir. Nədən ki, burada söhbət Qarabağdan, Qarabağın timsalında bütün Azərbaycandan gedir. Bu gün əlində əsir-yesir qaldığımız problemlərin ilkin konturları görünür bu filmdə.**

Əslində filmdən əvvəl elə tariximizin özündə... Ancaq bir var bu tarixi oxuyasan, bir də var geniş ekranda hadisələrin iştirakçısı kimi seyr edəsən. Təbii, ekran daha yayğın və populyardır. İntəhası bir məsələ var ki, haqqında söz açacağımız film bədii filmdir və təbii ki, hadisələr tamamilə tarixdə olduğu kimi əks olunmayıb. Eynən illər öncə çəkilən tarixi filmlərimiz kimi...

Ekranın populyarlığının bir sıra mənfi nəticələri də olur. Tamaşaçılar, oxucular əsərin və ya hadisənin əsil variantından daha çox onun ekran versiyasına inanırlar və yadda saxlayırlar. Bu da bəzən tarixi hadisələr haqqında publikada, hətta bəzən cəmiyyətdə düzgün olmayan qənaətlər yaradır. Xüsusən bədii və sənədli əsərlərin sərhədini dəqiq müəyyən edə bilməyən çoxluq arasında... Odur ki, bədii filmlərdə əsasən qəhrəmanların adlarının dəyişdirilməsi məqsədəuyğundur. Ancaq söhbət Nizami, Nəsimi, Cavad xan, Koroğlu, Babək və digər tarixi şəxsiyyətlərdən gedirsə, işlər bir az çətinləşir. İbrahimxəlil xan da eləcə...

Tarixi şəxsiyyətlər haqda bütün filmlər haradasa adamda balaca "xəyal qırıqlığı" yaradır. Nədən ki, hər kəs barəsində oxuduğu, əhvalatlar eşitdiyi tanınmış şəxsi xəyalında bir cür təsəvvür edir, özü üçün xəyali obraz yaradır.

İbrahimxəlil xan obrazı tarix elmindən başqa S.Vurğunun məşhur "Vaqif" dramından da qalıb yadımızda. Əsərdə əsasən mənfi planda təsvir olunan xan hətta təlxəyin dili ilə lağa da qoyulur.

Ancaq gerçəklər başqa həqiqəti diqtə etməkdədir. Sən demə, İbrahim xan başıbəlalı Qarabağ üçün ömrünü-gününü şam kimi əridən, ancaq iki nəhəng imperiya qarşısında əlacsız qalıb Azərbaycanın vahidliyi və müstəqilliyi uğrunda apardığı mübarizənin qurbanı olan böyük tarixi şəxsiyyət imiş.

İstedadlı aktyor Fəxrəddin Manafovun təqdimatında lirik ovqatda görünsə də, ümumilikdə obraz tamaşaçının yaddaşında yuva qura bilir. Filmin bütünlükdə İbrahim xandan, onun taleyindən bəhs etdiyini düşünəndə lirik ricətlərə, ailə ilə birlikdə səmimi söhbətlərə, hətta şeirləşmələrə ehtiyac duyulduğunu inkar etmək olmaz.

Ssenarisi xalq yazıçısı İlyas Əfəndiyevin "Hökmdar və qızı" faciəsinin motivləri əsasında yazıçı Elçin tərəfindən qələmə alınan və A.S.V.A "Profi Studiya XXI" Prodüser Mərkəzi tərəfindən rejissor Ramiz Fətəliyevin quruluşunda ekranlaşdırılan filmin ən əsas cəhətlərindən biri budur ki, bəhs olunan dövrdəki Azərbaycanı kifayət qədər aydın əks etdirir. Babalarımızın səhvi də, qəhrəmanlığı da, tərəddüdləri və daxili gerginlikləri də, üzləşdikləri uğursuzluqlar da kifayət qədər aydın görünür. Bir tərəfdən onları işğalçılara qarşı birləşə bilməməkdə suçlayırsansa, digər tərəfdən hallarına acıyırsan. Məsələn, özünü İbrahim xanın yerinə qoyursan... Xan əslində heç bir səhvə yol vermir. Qızını kəniz, oğlunu girov verəndə belə... Ruslarla anlaşmaya gedəndə belə... Göz önündə başqa bir alternativ var - Cavad xan! O heç kimlə hesablaşmır, heç kimə boyun əymək istəmir. Bir sözlə, gücün qarşısına siyasətlə deyil, mərdliklə, igidliklə çıxır və daha tez məğlub olur.

İbrahim xan 400 il öncə Şirvan şahlığına başçılıq edən adaşı kimi ağlın, siyasətin gücünə Qarabağı, Azərbaycanı xilas etməyə çalışır. Amma öz sələfindən fərqli olaraq daha çətin vəziyyətdə qalır. Əvvəla onun rəhbərlik etdiyi dövlət şahlıq yox, balaca bir xanlıq idi. İkincisi, nə Fətəli şah Teymurləng idi, nə də Aleksandr Toxtamış...

Təbii ki, tarixi gerçəklərdən yadımızda qalan Ağabəyim ağa obrazı da filmin diqqət çəkən qəhrəmanlarındandır. Filmdə bu xəttə, Ağabəyimin daxili dramına, üzləşdiyi qəribə taleyə münasibətdə müəlliflər sanki İbrahim xan mövqeyindən çıxış edirlər. Məsələyə zahirən də olsa soyyuqqanlı münasibət göstərirlər. Buna baxmayaraq, Günəş Əliyevanın təqdimatında Ağabəyim ağa olduqca maraqlı alınıb. Onun əsil azərbaycanlılara məxsus olan zahiri görkəmi, iri və parlaq gözləri, qarabuğdayı sifəti, eyni zamanda xan qızına məxsus təmkini, ağlı tamaşaçıda dərin təəssürat yaradır. O, atasını başa düşür, vəziyyətin çıxılmazlığını dərk edir və Qarabağın xilası üçün özünü qurban verir. Ancaq bütün bu hadisələr Ağabəyim ağa haqqında yazılan digər bədii mətnlərdən fərqli olaraq lirik planda verilmir. Xan qızının qətiyyəti, hətta qardaşını şah tərəfdən vuruşduğu üçün rədd etməsi tamamilə fərqli bir obraz canlandırır qarşımızda. Bəlkə elə buna görədir ki, Ağabəyimlə Saday bəyin məhəbbət tarixçəsi bir az sönük görünür. Xüsusən ayrılıq səhnəsi...

Saday bəy ömürlük ayrılacağı sevgilisini elə bir tövrlə qınayır ki, yalnız görüşə bir balaca gecikən xanımlara belə təhniz etmək olar. Məncə bu dəhşətli səhnədə dialoq olmamalı idi. Qərarı xan verib. Saday bəy bir əsgər kimi bu qərarı müzakirə edə bilməz. Eləcə də Ağabəyim ağa. Ayrılıq səhnəsini, məsələn, belə vermək olardı: Saday bəy faytonla Tehrana yola düşən Ağabəyim ağaya baxa-baxa başını aşağı salır, sonra atının cilovunu sıxaraq alnını onun alnına söykəyir... Filmin sonrakı gedişi də bu görüntünü tamamlayardı. Çünki Sadayın Ağabəyimdən sonra başıbəlalı vətənində atından və qılıncından savayı heç nəyi qalmır və ən maraqlısı, Saday bəy Cavad xana köməyə gedərək Gəncədə şəhid olur.

Cavad xan Vidadi Həsənovun təqdimatında o qədər də maraqlı görünmədi nədənsə... Vidadi Həsənov geyimi və rəftarı ilə xandan çox rəncbəri xatırladırdı. Onun döyüş səhnələri Hollivudun tükürpədən filmlərinə alışmış tamaşaçıya o qədər də təsir etmir. Ancaq ümumən döyüş səhnələrini uğurlu saymaq olar. Xüsusən səsləndirməni... Bildiyim qədər, "Hökmdarın taleyi" ən çağdaş səsləndirmə avadanlıqları ilə işlənən ilk Azərbaycan filmidir. Filmin operator işi də təqdirəlayiqdir.

Cavad xanın həyat yoldaşı (Mehriban Zəki) "öz ərindən" fərqli olaraq olduqca maraqlı oyun nümayiş etdirir. O, Cavad xanın meyitinin dalınca gələndə rus zabiti xanın arvadını böyük hörmətlə qarşılayır və əsgərlərə göstəriş verir ki, xanın da, oğlanlarının da meyitini versinlər. Bu zaman xan arvadı Şərqə - Azərbaycana məxsus şahanə bir cavabla rus zabitini heyrətə gətirir:

"Mən xanın dalınca gəlmişəm. O ki qaldı oğlanlarıma o biri şəhidlər necə, onlar da elə..."

Bu artıq müəlliflərin tamaşaçıya ötürdüyü koddur - əbədi qalibiyyət! İnsan əlbəttə ki, əvvəl mənəvi cəhətdən özünü qalib hiss etməlidir. Nə Cavad xanın arvadı, nə də Ağabəyim ağa mənəvi cəhətdən heç vaxt məğlub olmurlar və bir balaca yazıçılıq eləyib demək olar ki, Azərbaycanın bugünkü müstəqilliyi, azadlığı məhz bu ruhun, bu yaşantının üzərində nəsildən-nəslə keçə bildi. Yoxsa məmləkətdə daşı-daş üstdə qoydular ki?!

Filmdə mənimçün maraqlı cəhətlərdən biri də imperiya mədəniyyəti görmüş rus əsgərlərinin rəftarı idi. Öncəliklə onu deyim ki, çar Aleksandr başda olmaqla bütün rus əsgər və zabitlərini oynayan aktyorların ifası uğurlu idi. Hər millətin öz dilində danışması isə filmi daha inandırıcı və daha canlı edirdi.

Rus əsgərləri çox yerdə alicənablıq nümayiş etdirirdilər. Və bu alicənablığın fonunda Qarabağda yaşayan ermənilərin məkri, namərdliyi, ikiüzlülüyü daha qabarıq görünürdü. Hətta İbrahim xan kimi usta bir insan da bu "yumşaq tikanların", pambıqla baş kəsən hiyləgərlərin işindən baş aça bilmirdi. Daha doğrusu, ermənisayaq xəyanətlərin mahiyyətini dərk etməkdə çətinlik çəkirdi... Amma ümumilikdə xan üçün qaranlıq heç nə yox idi. Qarabağın başının üstünü elə bir fəlakət almışdı ki, ermənilərin xəyanət ilmələrini sökməyə vaxt qalmamışdı.

Film Azərbaycanın necə bir çıxılmazlıqda qaldığını tamaşaçıya dəqiqliklə çatdıra bilir. Azərbaycan elə bir durumdadır ki, bircə çıxış yolu var - heç nə!

Odur ki, filmə baxdıqca ölkəmizin bu gününə şükür edir, dövlətçiliyin necə qiymətli bir sərvət olduğunu daha dərindən anlayırsan. Bu da ki, az iş deyil.

**ŞƏRİF**